AZƏRBAYCAN RESPUBLİKASI

VERGİLƏR NAZİRLİYİ

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İDARƏSİ

BEYNƏLXALQ TƏCRÜBƏLƏR VƏ İNNOVASİYALAR ŞÖBƏSİ

# Beynəlxalq təcrübədə vergidən yayınma cinayətlərinin tərkibi

2015

## Mündəricat


İtaliya Respublikası ....................................................................................................3

Çexiya Respublikası......................................................................................................6

Litva Respublikası .......................................................................................................4

Latviya Respublikası.....................................................................................................5

Estoniya Respublikası...................................................................................................6

Finlandiya Respublikası................................................................................................7

Makedoniya Respublikası.............................................................................................8

Amerika Birləşmiş Ştatları............................................................................................8

Rusiya Federasiyası .....................................................................................................9

Moldova Respublikası...................................................................................................10

Qazaxıstan Respublikası...............................................................................................10

Ukrayna Respublikası...................................................................................................12

Gürcüstan Respublikası................................................................................................12

## İtaliya Respublikası

İtaliya Cəza məcəlləsi II Fəsilinin 360-cı maddəsinə (Dövlət vergilərinin və rüsumlarının ödənilməsindən qanunsuz imtina) əsasən ödənilməli olan və səlahiyyətli orqan tərəfindən hesablanan vergilərin ödənilməsi öhdəliyindən imtina həbs və ya cərimə ilə nəticələnə bilər. Əgər belə imtina şiddət yolu ilə həyata keçirilərsə, adı çəkilən Qanunun digər maddələri ilə müvafiq tədbirlər görülür. Bununla yanaşı, II Fəsilin 361-ci maddəsinə (Təhrik yolu ilə vergini ödəməkdən imtina) əsasən hədiyyə verməklə, danışıqlar yoluna əl atmaqla və yaxud təhdid etmək yolu ilə qanunvericilikdə nəzərdə tutulan vergilərin və rüsumların ödənilməməsi həbs cəzası və cərimə tətbiq oluna bilər. Qeyd olunan maddəyə əsasən həbs cəzası maksimum 5 il və cərimə isə maksimum on min ABŞ dolları ola bilər.

Qeyd olunan Fəsilin 362-ci maddəsinə (Təhlükə yaradan gəlir mənbələri) əsasən fərdi sahibkarlar və ya şirkətlər bilərəkdən səlahiyyətli orqana vergiyə cəlb olunmalı öz mülkiyyəti, kapitalı və gəliri haqqında yalan məlumat verirsə, başqa sözlə vergidən yayınırsa, gəlirini gizlədirsə, səhv bəyannamə verirsə və ya saxta əməliyyatlar aparırsa, bir sözlə səlahiyyətli orqanı bilərəkdən aldadırsa belə əməllər cərimələnir və ya 6 aydan çox olmamaqla həbs cəzasına məhkum edilir.

## Çexiya Respublikası

Çexiya Cinayət Məcəlləsinin 148-ci maddəsinə (Vergi, Tarif və digər icbari yığımların azaldılması) əsasən vergi, gömrük rüsumlarının sosial müdafiə və ya sağlamlıq siğorta ayırmalarını əhəmiyyətli miqdarda azaldan şəxs 6 aydan 3 ilə kimi müddətə azadlıqdan məhrumetmə və ya cərimə məbləği ilə cəzalandırılır. Bununla yanaşı, yuxarıda sadalanan halda cinayət ən azı 2 şəxslə birlikdə törədildikdə və ya rəsmi möhür sui-istifadə edilərək belə cinayətə şərait yaradıldıqda şəxslər 1 ildən 8 llədək həbs cəzası ilə cəzalandırılır.

Eyni zamanda, bu maddənin məqsədləri üçün törədilən cinayət geniş miqyaslı zərər vurmaqla nəticələnərsə, cinayətkar 5 ildən 12 ilə qədər azadlıqdan məhrum edilir.

## Litva Respublikası

Litva Cinayət Məcəlləsinin 219-cu maddəsinə əsasən Vergi bəyannaməsinin qeydiyyata alınması və ya prosedura uyğun hesabatın və ya digər sənədin təsdiq edilməsi zamanı şəxs rəsmi dövlət orqanı tərəfindən verginin ödənilməsi öhdəliyi ilə bağlı xəbərdarlıqdan sonra hesablanmış vergini vaxtında ödəyə bilmirsə, cərimə məbləği ilə cəzalandırılır və ya 4 ilə qədər azadlıqdan məhrum edilir. Eyni zamanda, qeyd olunan aktı həyata keçirən şəxs, tərəfindən ödənilməli olduğu 500 MSL-dan dən (minimum standard of living – minimum yaşam standartı) yuxarı məbləği ödəyə bilmədikdə 2 ildən 6 ilə qədər azadlıqdan məhrum edilmə ilə cəzalandırılır.

Göstərilənlərlə yanaşı, yuxarıda göstərilən halları törətmiş şəxs tərəfindən ödənməli olduğu 10 MSL-i keçməyən məbləğdə vergini ödəyə bilmirsə, xəta hesab edilir və ictimai işlərə cəlb edilir və ya pul məbləği ilə və ya azadlığın məhdudlaşdırlıması (həbs cəzası deyil) ilə cərimələnir. Bu maddənin məqsədləri üçün hüquqi şəxslər də məsuliyyətə cəlb olunur.

Cinayət Məcəlləsinin 220-ci maddəsinə (Gəlir, Mənfəət və Aktivlər barədə qeyri-dürüst məlumatların verilməsi) əsasən vergidən yayınmaq məqsədi ilə şəxs vergi bəyannaməsində və ya qayda ilə müəyyən edilmiş hesabatda və ya digər sənədlərdə gəliri, mənfəəti, aktivləri barədə düzgün olmayan məlumatları səlahiyyətli dövlət orqanlarına təqdim edirsə, hər hansı bir fəaliyyət növü ilə məşğul olmaq hüququndan və ya 3 ilə qədər müddətinə azadlıqdan məhrum edilə bilər. 10 MSL məbləğindən çox miqdarda olan vergini ödəməkdən yayınmaq məqsədi ilə yuxarıda qeyd olunan cinayət aktını həyata keçirən şəxsin hərəkəti xəta sayılır və ictimai işlərə cəlb edilir və ya cərimə və ya azadlıqdan məhdudlaşdırma (həbs edilmir) ilə cəzalandırılır. Bu maddənin məqsədləri üçün hüquqi şəxslər də məsuliyyətə cəlb olunur.

Bununla yanaşı, Cinayət Məcəlləsinin 221-ci maddəsinə (Vergi bəyannaməsinin və əlaqəli digər sənədlərin təqdim edilməməsi) əsasən şəxs rəsmi dövlət orqanı tərəfindən sənədlərin təqdim edilməsi öhdəliyi ilə bağlı xəbərdarlıqdan sonra qanuni aktlarla müəyyən edilmiş prosedura uyğun olaraq vergi bəyannaməsinin təqdim etmirsə və ya müəyyən edilmiş prosedura uyğun hesabatın və ya şəxsin gəlir, mənfəət və ya aktivlərinə aid digər sənədin təsdiq etmirsə, hərəkəti xəta sayılır və ictimai işlərə cəlb edilir və ya cərimə və ya həbs ilə cəzalandırılır.

## **Latviya Respublikası**

Latviya Respublikasında cinayət məcəlləsinin 217-ci maddəsi “vergi ödənişləri və ona ekvivalent ödənişlərdən yayınma” adlanır. Həmin maddəyə görə vergidən yayınma əməlləri aşağıdakılardan ibarətdir:

- Vergi ödənişləri və ona ekvivalent ödənişlərin dövlət büdcəsinə ödəməkdən yayınma
- Gəlirlərin vergidən yayındırma məqsədləri ilə gizlədilməsi və ya azaldılması
- Dövlət və ya yerli hökümət orqanlarına külli miqdarda itkilərə səbəb olan yayındırma faktları

Qeyd: Göstərilən əməlləri törədən şəxslərə aşağıdakı cəza tədbirləri tətbiq edilə bilər.

- əmlakın müsadirə edilməsi və ya edilməməsi ilə 4 ilə qədər azadlıqdan məhrum edilmə
- ictimai işlərə cəlb etmə
- cərimə sanksiyaları
- Müəyyən olunmuş sahibkarlıq fəaliyyəti və ya müəyyən olunmuş sahədə fəaliyyət göstərməkdən 2 ildən 5 ilə qədər məhrum edilmə

Qeyd olunmuş cinayət əməlləri mütəşəkkil qrup tərəfindən həyata keçirilmişsə:

- əmlakı müsadirə ediərək və ya edilmədən 10 ilə qədər azadlıqdan məhrum edilmə
- Müəyyən olunmuş sahibkarlıq fəaliyyəti və ya müəyyən olunmuş sahədə fəaliyyət göstərməkdən 2 ildən 5 ilə qədər məhrum edilmə

Cinayət məcəlləsinin 218-ci maddəsi “Bəyannamələrin təqdim olunmasından boyun qaçırma” adlanır. Həmin maddəyə görə şəxs qəsdən gəlir, əmlak və ya əməliyyatlar bəyannaməsində ya qanunla müəyyən edilmiş digər maliyyə xarakterli bəyannamələrdə səhv məlumatlar göstərirsə, və həmin məlumatların yanlış təqdim edilməsi nəticəsində küllü miqdarda vəsaitin dövlət büdcəsinə daxil olması yayınmışsa, belə halda, müvəqqəti azadlıqdan məhrum etmə, və ya ictimai işlərə cəlb etmə, yaxud cərimə məbləğləri ilə cəzalandırıla bilər.

Əgər şəxs qanunla müəyyən edilmiş bəyannamədə əmlak və ya gəlirlərinin yaranma mənbəyini qeyd etmirsə, və ya səhv məlumat təqdim edirsə, əgər

məlumatların yanlış təqdim edilməsi nəticəsində küllü miqdarda vəsaitin dövlət büdcəsinə daxil olması yayınmışsa, əmlakın müsadirə edilib edilməməsi ilə 2 ilə qədər azadlıqdan məhrum edilmə, və ya ictimai işlərə cəlb etmə, yaxud cərimə ilə cəzalandırıla bilər.

## Estoniya

Estoniya Respublikasında Cinayət Məcəlləsinin 218-ci maddəsi "Vergilərin və onlara bərabər ödənişlərin yayındırılması" adlanır. Həmin maddəyə görə aşağıdakı əməllər vergidən yayınma cinayəti hesab olunur:

- Vergilərin və onlara bərabər ödənişlərin yayındırılması

Qeyd: Əgər il ərzində yayınma təkrar baş verərsə azadlıqdan üç ilə qədər məhrum etmə və ya 80 minimum əmək haqqı həcmində cərimə və 2 ildən 5 ilə qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağası tətbiq edilir.

- Vergiyə cəlb olunmalı obyektlərin gizlədilməsi və ya kiçildiməsi
- Vergiyə cəlb olunmalı obyektlərin gizlədilməsi və ya kiçildiməsi nəticəsində külli miqdarda dövlətə və ya özünü idarəetmə orqanına zərər dəyirsə

Qeyd: Bu zaman 5 ilə qədər azadlıqdan məhrum etmə və ya 120 minimum əmək haqqı həcmində cərimə və əmlakın müsadirə olunması, və ya 2 ildən 5 ilə qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa qadağa tətbiq edilir.

- Şəxsin bəyannamə təqdim etməməsi və ya təhrif olunmuş təqdim etməsi (gəlir, əmlak, əməliyyatlar haqqında bəyannamə)

Qeyd: Bu zaman 80 minimum əmək haqqı miqdarında cərimə tətbiq edilir. Əgər eyni qanun pozuntusu təkrarlanarsa üç ilə qədər azadlıqdan məhrum etmə və ya 120 minimum əmək haqqı həcmində cərimə tətbiq olunur.

## Finlandiya

Finlandiya Cinayət Məcəlləsinin 29-cu Fəslinin 1-ci bölməsinə (Vergi saxtakarlığı) əsasən aşağıdakı vergidən yayınma cinayətləri əməllərinə görə şəxslər cərimələnə və ya həbs edilə bilər:

(1) Vergi orqanına vergilərin hesablanmasına təsir edəcək yanlış məlumatların verilməsi,
(2) Verginin hesablanmasına təsir edəcək səhv bəyannamələrin verilməsi,
(3) Vergidən yayınma məqsədi ilə vergitutma ilə bağlı qanuni öhdəliklərin yerinə yetirilməməsi
(4) Müxtəlif saxtakarlıq əməllərinin edilməsi və bununla da verginin hesablanmamasına, aşağı hesablanmasına və ya həddindən artıq azaldılmasına səbəb olan və ya çalışan şəxs vergi saxtakarlığı altında cərimələnir və ya 2 ilə qədər həbs cəzası verilir.

Bununla yanaşı, qeyd olunan fəsilin 2-ci bölməsinə (Ağır vergi saxtakarlığı) əsasən xüsusi cinayət metodlardan istifadə edilərək törədilibsə və ümumi dəyərləndirmədə vergi saxtakarlığı ağır hesab olunursa, qanunu pozan şəxs ağır vergi saxtakarlığı altında 4 aydan 4 ilə qədər həbs cəzasına məhkum edilir. Eyni zamanda, həmin fəsilin 3-cü bölməsinə (kiçik vergi saxtakarlığı) əsasən ümumi dəyərləndirmə zamanı, axtarılan maliyyə vəsaitinin miqdarı və pozuntu ilə bağlı digər şərtlər də nəzərə alınaraq, vergi saxtakarlığı xırda miqyasda olarsa, qanunu pozan şəxs xırda vergi saxtakarlığı altında cərimələnir . Cəza olaraq artıq vergi ödənilməsi sanksiyası kifayət hesab olunursa, ittiham, istintaq və ya cəzalandırılma olmadan azad edilə bilər.

29-cü Fəslin 4-cü bölməsinə (Vergi qanunvericiliyinin pozuntusu) əsasən iflas və məhkəmə qərarı ilə ödənişlərin dayandırılmasından başqa aşağıdakı hallarda şəxslər (vergi saxtakarlığı hesab edilmədikdə) vergi qanunvericiliyinin pozulmasına görə cərimələnir və ya 6 aya qədər həbs cəzası verilir.

## Makedoniya

Makedoniya Cinayət Məcəlləsinin 279-cu maddəsinə əsasən şəxs özü və ya başqasının marağında qanunla müəyyən edilmiş vergi, ianə və ya digər növ rüsumların bütöv və ya qismən ödənişindən yayınmaq məqsədi ilə gəlirləri, və öhdəlikləri barədə yanlış məlumat verirsə, və ya şəxs öhdəliklərin müəyyən edilməsində təsir edən gəlir, və ya faktların hesabatını vermirsə və həmin öhdəliyin miqdarı külli miqdarda məbləğdirsə, 6 aydan 5 ilə qədər müddətinə həbs edilir və ya cərimə ilə cəzalandırılır. Bununla yanaşı, məbləğ əhəmiyyətli dərəcədə çoxdursa, cinayətkar 1 ildən 5 ilə qədər müddətinə həbs edilir və ya cərimə edilir.

## Amerika Birləşmiş Ştatları

Amerika Birləşmiş Ştatları Daxili Gəlirlər Məcəlləsinin 75-ci Fəslinin (Cinayət, Digər Pozuntular və Müsadirə) A Yarımfəslinin (Cinayətlər) 7201-7217-ci maddələrində vergi cinayətlərinin müxtəlif pozuntuları ilə bağlı məsələlər öz əksini tapmışdır. Bu bəndlərdə vergilərin ödənilməməsindən vergi hesablanmasına təsir edən səhv məlumatların verilməsinə kimi bütün məsələlər əhatə olunmuşdur. Daxili Gəlirlər Məcəlləsinin A Yarımfəslində (Cinayətlər) aşağıdakı vergi cinayətlərinə görə cərimə və ya həbs cəzası tətbiq edilə bilər:

- Vergidən yayınmaya cəhd
- Bilərəkdən təhrif olunmuş bəyannamə, azaldılmış vergi ödənişi və səhv məlumatın təqdim edilməsi
- Saxta maliyyə hesabatlar hazırlamaq və ya işçilər haqqında saxta hesabatlar hazırlamaq
- Ödəmə mənbəyində azadolmanı təsdiq edən sertifikatda saxtakarlıq etmək və ya yanlış məlumat təqdim etmək
- Saxta və yalan hesabatlar hazırlamaq
- Bəyannamə, Hesabat və digər sənədlərdə saxtakarlıq etmək
- Möhürlə bağlı qanun pozuntuları
- Möhürdən qanunsuz istifadə və satış

- Vergilərin hesablanması  ilə bağlı alıcılara və icarəçilərə yanlış  məlumatların verilməsi
- Daxili Gəlirlər Qanunlarının tətbiq olunmasına müdaxilə cəhdləri
- Məlumatın icazəsiz açıqlanması
- İcazəsiz bəyannamələrin və bəyannamə məlumatlarının yoxlanması
- ABŞ-ın işçiləri və vəzifəli şəxsləri tərəfindən pozuntular
- Vergi yığımı ilə bağlı pozuntular
- Məlumatların bəyannaməni hazırlayan tərəfindən açıqlanması və ya istifadə edilməsi
- Vergi ödəyicilərinin auditinə maneə və əngəllərin törədilməsi

Qeyd edilməlidir ki, Daxili Gəlirlər Məcəlləsində yuxarıda qeyd olunan vergidən yayınma cinayətinə aid olan halların hər biri üçün ayrıca maddə nəzərdə tutulub. ABŞ Daxili Gəlirlər Məcəlləsində vergidən yayınma halları vergi ödəyicisi ilə yanaşı digər vergi orqanı əməkdaşlarına da şamil edilir. Məsələn vergi məmurunun qanunsuz məlumat açıqlaması bu qəbildən cinayət hesab oluna bilər.  Eyni zamanda, hər bir hala münasibtədə müxtəlif cərimə və həbs cəzaları mövcuddur. https://www.law.cornell.edu/uscode/text/26/subtitle-F/chapter-75/subchapter-A/part-I

## Rusiya Federasiyası

Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 198 və 199-cu maddələri fiziki və hüquqi şəxslərin vergi və yığımların ödənilməsindən yayınma cinayətinə həsr olunmuşdur. Vergidən yayınma cinayətləri aşağıda qeyd olunan əməllərdən ibarətdir:

1) Fiziki şəxsin vergi və yığımları ödəməkdən yayınması. Vergi bəyannaməsini və ya vergi qanunvericiliyinə görə icbari sənədləri təqdim etməmək və ya vergi bəyannaməsinə qeyri dürüst məlumatları daxil etməklə külli miqdarda vergidən yayınmaq cinayət əməli hesab olunur. Buna görə şəxsə aşağıda qeyd olunan cəza tədbirləri tətbiq oluna bilər:

- yüz mindən üç yüz min rubla (1686 AZN – 5059 AZN) qədər cərimə;

- Cavabdeh şəxsin bir və ya iki il müddətinə əmək haqqı və ya digər gəlirlərinin misli
- Bir ilə qədər müddətə icbari iş
- Altı aya qədər azadlıqdan məhrum edilmə
- Bir ilə qədər həbs cəzası

Əgər qeyd olunan cinayət əməlləri külli miqdarda vəsaitin yayındırılmasına aiddirsə:

- Iki yüz mindən beş yüz min rubla (3368 AZN – 8422 AZN) qədər cərimə
- Cavabdeh şəxsin 18 aylıq və ya üç il müddətinə əmək haqqı və ya digər gəlirlərinin misli
- Üç ilə qədər icbari iş
- Üç ilə qədər həbs cəzası

2) İlk dəfə vergidən yayınma cinayəti törətmiş şəxs Rusiya Federasiyasının vergi məcəlləsi ilə nəzərdə tutulmuş ödənişləri və hesablanan faiz /sanksiyaları tam ödədiyi təqdirdə cinayət məsuliyyətindən azad olunur.

Əgər qeyd olunan cinayət əməlləri hüquqi şəxs tərəfindən törədilərsə:

- Yüz mindən üç yüz minə qədər cərimə
- Cavabdeh şəxsin bir və ya iki il müddətinə əmək haqqı və ya digər gəlirlərinin misli
- Bir ildən iki ilə qədər müddətə icbari iş
- Müəyyən vəzifəni iki il müddətinə qədər tutmaqdan, və ya müəyyən fəaliyyətlə üç ilə qədər məşğul olmaqdan məhrum olmaq

Əgər həmin cinayət mütəşəkkil dəstə tərəfindən külli miqdarda zərər verməklə törədilmişdirsə:

- İki yüz mindən beş yüz min rubla (3374 AZN – 8435 AZN) qədər cərimə
- Cavabdeh şəxsin bir və ya üç il müddətinə əmək haqqı və ya digər gəlirlərinin misli
- Beş ilə qədər müddətə icbari iş

- Müəyyən vəzifəni iki il müddətinə qədər tutmaqdan, və ya müəyyən fəaliyyətlə üç ilə qədər məşğul olmaqdan məhrum olmaq
- Altı ilə qədər azadlıqdan məhrum olma

## Moldova Respublikası

Moldova Respublikasının Cinayət Məcəlləsinin 244-cü maddəsinə əsasən mühasibatlıq və maliyyə sənədlərini təhrif etməklə vergidən yayınan sahibkarlar, institutlar və təşkilatlar ödənməli olan vergi məbləği 2500 şərti vahiddən çox olduqda ödənməli məbləğin 1000-dən 2000-dək şərti vahidi ilə cərimələnir və 2 ilədək həbs edilir. Hüquqi şəxslər isə müəyyən sahədə fəaliyyəti qadağan edilməklə 1000 şərti vahiddən 3000 şərti vahidə kimi cərimələnir. Eyni fəaliyyət külli miqdarda olduqda ödənməli məbləğin 2000-dən 3000-dək şərti vahid və ya 3 ilədək həbs cəzası tətbiq edilir. Hüquqi şəxslərdə isə hüquqi şəxsin ləğv edilməsi və ya müəyyən fəaliyyətin qadağan edilməsi ilə yanaşı ödənməli məbləğin 3000-dən 6000-dək şərti vahid cəriməsi tətbiq edilir.

Qeyd: 1 şərti vahid = 1 makedon leyi (pul vahidi). 1 ley=0.05 avro.

## Qazaxıstan Respublikası

Qazaxıstan Respublikasının cinayət məcəlləsinin 244 və 245 –ci maddələri müvafiq olaraq vətəndaşların və hüquqi şəxslərin vergidən yayınmasına görə məsuliyyətə cəlb olunma məsələlərini tənzimləyir. Həmin maddələrdə konkret olaraq maliyyə sanksiyaları və faizlərin də dövlət büdcəsinə ödənilməkdən yayındırılmasının cinayət əməli hesab olunub olunmaması qeyd olunmamamışdır. Amma həmin maddələrdə vergidən yayınma cinayətinin vergi və/ və ya digər icbari ödənişləri dövlət büdcəsinə ödənilməkdən yayındırılmasından ibarət olduğu qeyd olunmuşdur. Cinayət məcəlləsinə görə Qazaxıstan Respublikasında aşağıdakı əməllər vergidən yayınma cinayəti hesab olunur:

- Vergi bəyannaməsinin və ya vergilərin hesablanmasına xidmət edən digər sənədlərin təqdim edilməməsi

Qeyd: Bu zaman iki min şərti maliyyə vahidi həcmində cərimə və ya həmin məbləğdə islah edici işlərə cəlb olunmaq, və ya üç ilə qədər azadlıqdan məhrum etmək cəzası tətbiq edilir.

- Gəlir və xərc məlumatlarının təhrif edilərək təqdim edilməsi
- Saxta hesab fakturalardan istifadə

Qeyd: Beş min şərti maliyyə vahidi həcmində və ya həmin məbləğdə islah edici işlərə cəlb olunmaq cəzası tətbiq edilir.

**Ukrayna Respublikası**

Ukrayna Respublikasının cinayət məcəlləsinin 212-ci maddəsi "Vergilərin, yığımların və digər icbari ödənişlərin ödənilməsindən yayınma" adlanır. Həmin maddədə qeyd olunur ki, hüquqi və ya fiziki şəxslərin məqsədli şəkildə vergilərin, yığımların və vergi sisteminə daxil olan digər icbari ödənişlərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması cinayət əməli hesab olunur. Həmin məcəlləyə görə, qeyd olunan əməlləri ilk dəfə törədən şəxs cinayət məsuliyyətinə cəlb olunmadan ödəməli olduğu vergi o cümlədən faiz və sanksiyaları ödəyərsə cinayət məsuliyyətindən azad olunur.

Cinayətə cəlb olunanlara isə üç yüzdən beş yüzə qədər vergiyə cəlb olunmayan minimum gəlir həcmində, və ya müəyyən vəzifələri tutma haqqından məhrum edilmə, və ya müəyyən fəaliyyətlə üç ilə qədər məşğul olmağa qadağa cəzası verilə bilər. Əgər qeyd olunan pozuntular mütəşəkkil dəstə tərəfindən və ya külli miqdarda büdcə daxilolmalarına səbəb olarsa beş yüzdən iki minə qədər vergiyə cəlb olunmayan minimum gəlir həcmində cərimə ilə cəzalandırılır.

**Gürcüstan Respublikası**

Gürcüstan Respublikasında cinayət məcəlləsinin 218-ci maddəsində vergidən yayınma cinayətinin aşağıdakı maddələrdə təsvir edilmişdir:

- Məqsədyönlü şəkildə xeyli miqdarda vergidən yayınma (cərimə və ya üç ildən beş ilə qədər azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırıla bilər)
- Məqsədyönlü şəkildə xeyli miqdarda vergidən dəfələrlə yayınma
- Məqsədyönlü şəkildə külli miqdarda məbləğdə vergidən yayınma (Beş ilə qədər azadlıqdam məhrum olunma)
- Məqsədyönlü şəkildə xeyli miqdarda vergidən mütəşəkkil dəstə tərəfindən yayınma
- Vergidən yayınma məqsədi ilə əmlakın özgəninkiləşdirilməsi (cərimə və ya iki ildən üç ilə qədər azadlıqdan məhrum olunma)

Qeyd: Bu maddədə ”xeyli miqdar” dedikdə 50000 min laridən (22000 AZN) çox məbləğ, “külli miqdar” dedikdə 100000 laridən (44000 AZN) çox məbləğ başa düşülür.

Bu maddə çərçivəsində 45 iş günü ərzində borclu öhdəliyini yerinə yetirirsə və ya qanuni möhlət alırsa nəzərdə tutulmuş cinayət məsuliyyətindən azad olunur.